2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 02 avqust 2024-cü il tarixli 09 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 03 avqust 2024-cü il

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Nəriman İlqar oğlunun adından namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 29 iyul 2024-cü il tarixli 18/59 saylı qərarının mübahisələndirilməsi, həmin qərarın ləğv olunması və namizədliyin qeydə alınması barədə 2024-cü il avqustun 2-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş yazılı müraciəti araşdıraraq **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulan müddətdə və qaydada verildiyindən müvafiq rəy verilməsi üçün tərəfimdən icraata qəbul edilmişdir.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət imzalanmamış və bununla da seçki qanunvericiliyi ilə şikayətlərə dair müəyyən edilmiş tələblər pozulmuşdur. Belə ki, Seçki Məcəlləsinin 112.5.11-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 2.2-ci bəndinə əsasən, şikayətçi şikayəti imzalamalıdır. Seçki Məcəlləsinin 112-1.5.3-cü maddəsinə görə, şikayət həmin Məcəllə ilə müəyyən edilmiş qaydaların pozulması ilə daxil olmuşdursa, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 112.5.11-ci, 112-1.5.3-cü maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 2-ci hissəsinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Nəriman İlqar oğlunun adından Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 avqust 2024-cü il tarixli 09 saylı müraciət imzalanmadığından geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti geri göndərilən müraciətə əlavə edilsin.

Ekspert qrupunun üzvü Nailə Əsgərova